# Hünər göstərib ad qoyan Lerikin şəhid oğlu - Vidadi Cabbarov

**Vətəni öz qanı, canı bahasına yaşadan qeyrətli, igid oğlanlarımız Azərbaycanın ərazi bütövlüyü uğrunda oddan, alovdan keçərək şanlı tarix yazdılar.**



Bu yolda ulu torpağın bağrına zəfər bayrağı sancıb, şəhidlik zirvəsinə ucalan igidlərimiz çox oldu. Onların xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq. Lerik rayonu, Piran kəndində dünyaya göz açan, Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlərdə düşmənə qarşı haqq savaşımızda şəhidlik zirvəsinə ucalan 23 yaşlı gizir Vidadi Cabbarovun adı da onların sırasında durur.

Vətən fədaisi Vidadi İkinci Qarabağ müharibəsi başlanan gündən erməni dığalarına qarşı haqq savaşında qəhrəmancasına vuruşur, onlara layiqli cavab verir. O, Milli Qəhrəman Şükür Həmidovun rabitəçisi idi. Füzulidən başlayan döyüş yolu Şəhid Polkovnik Şükür Həmidovla birlikdə onu Qubadlıya qədər aparır. Çətin və şərəfli döyüş yolunu özünün də dediyi kimi "düşməni əzə-əzə" keçir. İgid gizir yağının atdığı mərmi qəlpəsindən dünyasını dəyişir. Həmin vaxt onların həyata keçirdiyi əks-hücum əməliyyatı uğurla başa çatır. Vidadidən iki gün sonra komandiri Şükür Həmidov şirin canını qurban verməklə vətənləşir. Bu günlər Piranda Vətənin qəhrəman oğlu Vidadinin məzarını ziyarət edəndə kənd sakinləri ilə görüşdüm. Onlar böyük qürurla, iftixarla Vidadidən danışdılar.

Oruc Aslanov( Piran kəndinin ağsaqqalı):- Vidadi aramızda olmasa da, onun xoş xatirəsini ürəyimizdə yaşadırıq. Çünki, o, Vətən, torpaq uğrunda şəhid olmuşdur. Onu da deyim ki, az yaşda belə Vidadi nəcib, xeyirxah əməllərin sahibi olaraq el-obada yaxşı hörmət qazanmışdı. Vətənin xidmətinə də sağlam əqidəli, xalqına, dövlətinə sədaqətli bir vətənpərvər kimi getdi. Və məqamı gələndə Qarabağ torpaqların bir qarışı da düşmən ayaqları altında qalmasın deyə, çəkinmədən sinəsini Vətəninə sipər etdi. Belə bir igidlə fəxr etməyə Piran camaatının mənəvi haqqı vardır. Həm də dövlət tərəfindən layiq olduğu "Vətən uğrunda", Cəbrayılın, Qubadlının azad olmasına görə medalları piranlılara yaxşı təsəllidir. Habil Əliyev:- Vidadi çox qeyrətli, mərd oğlan idi. Vətənini özünə hər şeydən üstün, qiymətli sayırdı. Mənfur erməni dığaların Azərbaycanımızın şərəfinə toxunan Qarabağa təcavüzünə heç cür dözə bilmirdi. Odur ki, İkinci Qarabağ müharibəsində Vətəni öz qanı bahasına yaşadan, igidliyi dillərdə dastana dönən oğullardan biri də Vidadi oldu.

Samir Məmmədov:- Piranlılar həmişə, hər yerdə Vidadinin hünərindən iftixarla danışırlar. Vətən müharibəsində o, qəhrəmanlığı ilə tarix yaratdı. Olduqca şərəfli bir ömür yaşadı. Ölümsüzlüyə qovuşan qəhrəman keçdiyi həyat yolu ilə Vətəni necə sevməyi, torpağı necə qorumağı bizə öyrətdi. İndi təkcə onun adı çəkiləndə ürəyimiz qürurdan dağa dönür. Bütün Azərbaycan belə oğulla fəxr edə bilər.

***Zəfər ORUCOĞLU,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

Bakı xəbər 2021.- 12 mart.- S.14.